

**Nəzakət KƏRİMOVA (ƏHMƏDOVA)**

**“ZƏFƏR GÜNÜ”**

***(Tədbirlər davam edir)***

Azərbaycan- İraq Mədəni Əlaqələr İB-nin sədri, Dünya Sülh səfiri, BMT-nin üzvü Tahirə xanım Məmmədovanın təşəbbüsü ilə İB-in ofisində “Zəfər günü” keçirildi. Görüşdə vaxtilə SSRİ Ali Sovetinin deputatı olmuş” Qırmızı Əmək Bayrağı” və “Oktyabr İnqilabı” ordenləri ilə təltif olunmuş əmək veteranı Zivər Əli qızı Səfərova Ümummilli Liderimiz Heydər Əliyevlə olan şəxsi görüşlərindən, ona adi bir fəhlə olaraq verdiyi dəyərdən, Ali Sovetə deputat seçildiyindən çox həyəcanla, xoş günlərindən gözəl görüş iştirakçılarına məlumat verdi. O, danışdıqca həmin anları bizə də yaşatdı. Bayram münasibətilə hamını təbrik etdi. Görüşdə Moskvadan dəvət olunmuş İlqar İsmayılovun da çıxışı maraqlı oldu. O, ölkəmizdən kənarda müxtəlif ölkə və şəhərlərin diasporlarındakı görüşlərindən, çıxışlarından böyük maraq və həyəcanla danışdı. Təşkilatdan faydalı məsləhətlər aldı. Yaşadığı Şuşa şəhərindəki uşaqlığından Füzulinin Horadiz qəsəbəsindəki xoş günlərindən söhbət açaraq oraya gedəcəyini bildirdi. Təşkilatın sədri Tahirə xanım xatirə olaraq ona özünün yazdığı “Qarabağ dünən və bu gün” kitabını və “Güllələnmiş ,Viran edilmiş Qarabağ mədəniyyəti” sənədli filminin diskini hədiyyə olaraq təqdim etdi.

Görüşdə Püstə Rəvan “Həkəri” qəzetinin baş redaktoru, Azərbaycan İraq Mədəni Əlaqələr İB-nin mətbuat xidmətinin rəhbəri Rauf İlyasov, ”Elm və təhsil” jurnalının baş redaktoru tanınmış jurnalist Pərixanım Mikayıl qızı Muradova, Nəcibə Ağamalıyeva və başqa qonaqlar maraqlı çıxışları ilə yadda qaldılar. “Təzadlar“ qəzetinin məsul işçisi Elçin Məmmədli Söhrab Tahirlə olan görüşündən kadrları nümayiş etdirməklə Məmməd Arazın ”Ana“ şeirini coşğu ilə söylədi. Pərixanım Muradovanın “Şəhid mundiri” və Firudin bəy Köçərliyə həsr etdiyi kitabların təqdimatı oldu.
Onun 109 şəhidə həsr etdiyi 22 bənddən ibarət şeirindən bir parçanı sizlərlə bölüşmək istəyirəm:
“Adları düzülüb baxın yan yana,
Can qurban etdilər Azərbaycana.
Hansını söyləyim,hansını deyim,
Gör neçə igidim susuz verib can.
Hansı şəhidimdən, qazimdəm yazım?
Xudayar, Cəbrayıl, Daşqınmı deyim,
Yoxsa ki, Teymuru deyim, ağlayIm?
Hansı qəhrəmanının adını çəkim?
Azər, Muxtar, Munis, Rəşadmı deyim?
Babaxan, Asiman, Elşadmı deyim?
Səyyad, Rufizim, Cavidan balam,
Nakam iki qardaş İmanla Bəhram.
Dünyaya bir gəlib, bir də getdilər,
Analar qəlbini viran etdilər.
Ruslan, Ramil, Nicat, Abbas, Elməddin,
Elnur, Yasər, Qüdrət, Mənsur, Tacəddin.
Elməddin, Nurlan, Mirzə, Kamil, Hafiz, İntiqam ,
Dönmədi geriyə dedi qana – qan.
Bilmirəm hansının adın söyləyim,
Başıma haranın külün ələyim?
Vüsalı, Elvini, Ceyhunu deyim?
Yoxsa Kamran, Həmdəm, Şahmurad deyim?

Hər şəhid evində ana ağlayır.
Nakam qız, gəlinlər şəhidlərinə
Saçların ağardıb, qara bağlayır. “




Sonda Tahirə xanım Zivər xanıma və Pəri xanıma təşkilatın üzvlük vəsiqəsini təqdim edərək tədbir iştirakçılarına minnətdarlığını bildirdi. İNK-nın sədri, ictimai xadim Rasim Məmmədov tədbir iştirakçılarını salamlayıb onlara işlərində uğurlar dilədi.